# İNTERNET MƏKANINDA İSTİFADƏ EDİLƏN QRAFİK İXTİSARLARIN TƏSNİFATI

**Səmra Faiq qızı Quluzadə**
*Sumqayıt Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCID:** 0009-0008-3585-5216
**E-mail:** semra.guluzade@mail.ru

***Açar sözlər:*** *qrafik ixtisarlar, internet, konraktur, siql, suspenziya, ideoqrafik işarə*
***Ключевые слова:*** *графические сокращения, интернет, контрактура, сигл, суспензия, идеографический знак*
***Key words:*** *graphic abbreviations, internet, contraction, sigl, suspension, ideographic sign*

Müasir kommunikasiya vasitələrinin inkişafı, dilin dinamikasını dəyişərək yeni ünsiyyət formalarını meydana çıxarmışdır. İnternet, qrafik ixtisarların yaranmasına və yayılmasına səbəb olan əsas platformalardan biridir. Bu məqalədə, internet məkanında istifadə edilən qrafik ixtisarların təsnifatı, onların dil və ünsiyyətə təsiri ilə yanaşı, konkret dil faktları ilə əsaslandırılması nəzərdə tutulur.

İnternetin geniş yayılması ilə qrafik ixtisarlar daha çox istifadə edilməyə başlanmış və ünsiyyətin daha sürətli və effektiv şəkildə qurulmasına kömək etmişdir. Bu ixtisarlar istifadəçilər arasında məzmunun daha yığcam və rahat şəkildə ifadə olunmasına şərait yaradır. Məqalə müxtəlif növ qrafik ixtisarların təsnifatını təqdim edir, məsələn, siql, suspenziya, kontraktura, ideoqrafik işarələr və piktoqramlar kimi növlərindən bəhs edir. Hər bir tipə aid olan qrafik ixtisarlar xüsusi hallarda istifadə olunan qısaltmaların dilə təsirini və funksiyalarını izah edir.

Bu tədqiqatın məqsədi internet dilinin inkişafını və qrafik ixtisarların dil və ünsiyyətə təsirini anlamaqdır. İnternet üzərində istifadə olunan bu qısaltmalar, eyni zamanda dilin informalizasiyasını və mədəniyyətlərarası ünsiyyətin zənginləşməsini təmin edir. Gələcəkdə bu cür qrafik ixtisarların daha da müxtəlifləşəcəyi və internet dilinin dinamikasının davamlı olaraq inkişaf edəcəyi gözlənilir.

**Metod və materiallar.** Bu elmi araşdırmanın əsas materialları internet üzərindəki müxtəlif sosial şəbəkələr, forumlar, bloqlar və messencerlərdə istifadə edilən yazışma mətnləri olmuşdur. Bu materialların təhlili üçün müasir kommunikasiya vasitələrinin inkişafı və internet dilinin xüsusiyyətləri ilə bağlı ədəbiyyatlara da istinad edilmişdir. İnternetdə geniş istifadə olunan qrafik ixtisarlar təhlil edilmişdir. Bu təhlillər dilçiliyin müqayisəli tutuşdurma və müqayisəli təsvir metodlarına əsaslanmışdır. Bu metod və materiallar əsasında, internet dilinin sürətli inkişafı və qrafik ixtisarların gündəlik ünsiyyətdəki rolunun əhəmiyyəti vurğulanmışdır.

**Qrafik ixtisarların dildə statusu.** Dilin zənginləşməsində və inkişafında önəmli bir rola malik olan ixtisar və abreviaturlar, əsasən, leksik və qrafik olmaqla iki əsas növə ayrılır. Leksik qısaltmalar sözlərin və ya ifadələrin qısaldılmış formalarıdır, onlar həm yazılı, həm də şifahi nitqdə istifadə edilə bilər. Lakin qrafik qısaltmalar yalnız yazılı dilə məxsusdur, çünki bunlar vizual formalarla ifadə olunur, buna görə də şifahi ünsiyyətdə bu qısaltmalar tam şəkildə səsləndirilir.

Bu baxımdan qrafik ixtisarların əsas xüsusiyyətləri aşağıdakı kimi qeyd edilir:

"*– yalnız yazıda istifadə olunur;*

*– bunlar mürəkkəb qısaltmalar və ya sadə qısaltmalar ola bilər (məsələn, Ltd, p/pp, BA, kph);*

*– bir çox hallarda başqa dillərdən (latın, ingilis, fransız və s.) alınır;*

*– şifahi nitqdə bunlar tam kök sözlərə və ifadələrə uyğun şəkildə tələffüz edilir (məsələn: arr. — arrive, m.p.h. — miles per hour və ya və s. — və sairə)*" (3, s.29-30).

Qısaltmaların yaranması dilin müxtəlif ünsiyyət formalarına uyğunlaşması ilə bağlıdır. Xüsusilə internet dili və rəqəmsal kommunikasiya mühitində qısaltmaların sayı və istifadə sahəsi üçün geniş platformalar və imkanlar mövcuddur. Məsələn, "TWK" (təşəkkür edirəm) və "SLM" (salam) kimi ifadələr internetdə və sosial şəbəkələrdə ünsiyyətin sürətləndirilməsi və qısa, səmərəli ifadə tərzi üçün istifadə olunur. Bu cür qısaltmalar dilin daha praktik və effektiv istifadə olunmasına xidmət edir, xüsusilə məhdud zaman və xarakterlər ilə mətn yazarkən lakoniklik baxımından faydalı hesab edilir.

"*Bundan əlavə, internet üzərindən ünsiyyət ən çox sosial şəbəkələrdə, müxtəlif bloglarda, forumlarda və ya messencerlərdə aparılır ki, bu da xüsusi bir "rəqəmsal dil" və ya "Digispeak"in yaranmasına səbəb olur. "Digispeak", həmçinin "techspeak" və ya "webspeak" kimi tanınır — müxtəlif veb resurslarında istifadə olunan, əksər hallarda qrafik ixtisarlardan ibarət qısaltmalar toplusudur*" (2, s.353).

Qrafik ixtisarlar yalnız yazılı ünsiyyətdə mövcud olduğu halda, şifahi dilə çevrildikdə sözlər tam formalarında tələffüz olunur. Bu fərq dilin şifahi və yazılı formalarının müxtəlifliyini və kommunikasiya tərzlərindəki dəyişiklikləri göstərir. Məsələn, "TV" və ya "Dr." kimi qısaltmalar yazılı dilin xüsusiyyətidir, amma şifahi danışıqda bu qısaltmaların tam formaları işlədilir: "televizor // televiziya" və ya "doktor".

Məhz bu baxımdan N.D.Poletayeva qeyd edir ki, "*qrafik ixtisarlar yalnız yazılı nitqdə istifadə olunan, xüsusi səs forması olmayan, şifahi nitqdə isə müvafiq qısaldılmamış formada reallaşan ixtisarlardır*" (14, s.122).

M.D. Xamrayev qrafik ixtisarların dildəki statusu haqqında maraqlı bir mövqe sərgiləyərək qeyd edir ki, "*qrafik ixtisarlar mahiyyət etibarı ilə orfoqrafik hadisədir, linqvistik təbiətə malik deyil. Amma bunun əksinə olaraq, abreviaturlar, yəni leksik ixtisarlar dil faktlarıdır*" (15, s.954). Bu fenomenlər bir-biri ilə dil vahidlərinin (sözlər, ifadələr və s.) qrafik olaraq təsbit edilməsi zamanı təmasda ola bilər. Başqa sözlə, dil vahidləri yazılı formada əks olunur, yəni qrafik olaraq qeyd edilir. Bu proses yazılı nitqin əsasını təşkil edir və dil vahidlərinin yazılı şəkildə ifadə olunmasına imkan verir.

Dilin inkişafını və yazılı dilin struktur xüsusiyyətlərini daha dərindən anlamaq üçün qısaltmaların necə modelləşdirildiyi və bu modellərin dilçilik nəzəriyyələrində necə istifadə edildiyi çox önəmlidir. Beləliklə, ixtisarların təhlili yalnız onların dilin strukturu üzərindəki təsirini deyil, həm də tarixi və ictimai kontekstdə yaranma səbəblərini izah etməyə kömək edir.

İnternet dilində yaranan qısaltmalar ənənəvi dil strukturlarından fərqli olaraq, çox vaxt sosial və texnoloji dəyişiklikləri əks etdirir. Bu qısaltmalar, internetin sürətli və qeyri-formal ünsiyyət tərzini təşkil edən bir dil forması kimi qəbul edilə bilər. Bu baxımdan, qısaltmalar yalnız dilin struktur və funksional inkişafını deyil, həm də sosial və mədəni aspektləri əks etdirir. İnternet dilindəki qısaltmaların təhlili, bu dilin üniversal və dinamik xüsusiyyətlərini ortaya

qoyur.

Yazıda və danışıqda istifadə edilən ixtisar və qısaltmalar yalnız dilin praktik istifadəsini asanlaşdırmır, eyni zamanda yazılı və şifahi dillərin qarşılıqlı əlaqəsini və inkişafını göstərir. Qısaltmalar, həmçinin internet dilinin inkişafını və bu inkişafın mədəni və texnoloji dəyişikliklərlə əlaqəsini əks etdirən bir fenomen olaraq önəmli bir yer tutur.

V. Vilçikova və Yu. Ryabova qeyd edirlər ki, "*bütün qrafik vasitələr özündə koqnitiv məqsəd daşıyır. Yəni reallığı dəqiq qavramaq üçün onu əlçatan şəkildə kodlaşdırmaq və eyni zamanda bu məlumatı qəbul edən fərdin beynində müəyyən bir koqnitiv model yaratmaq, onun şüurunu formalaşdırmağa xidmət edir. Qeyri-verbal komponent media-freymin ayrılmaz hissəsidir, ümumi mesajın məzmununda verbal hissəni tamamlayır. Bir neçə qavrayış kanalına eyni vaxtda təsir etməklə: vizual (qrafik vasitələr), audio (fonetik vasitələr, qəbul edən şəxsin səsli oxuma zamanı hiss edə biləcəyi, məsələn, başlıqlarda və ya məqalə mətnlərində aliterasiya və assonans istifadəsi), hətta, kinestetik mental forma yaradaraq gerçəkliyin təqdimatına xidmət edir*" (11, s.152).

**Qrafik ixtisarların təsnifatı.** Dilçilik ədəbiyyatında, göründüyü kimi, qrafik ixtisarlara fərqli münasibətlər mövcuddur. Bununla bağlı olaraq onların təsnifatında da fərqli yanaşmalara rast gəlinməkdədir. Məsələn, S.O. Barinovanın elmi araşdırmalarından bəhrələnən N.D. Poletayeva qrafik ixtisarları tiplərinə görə təsnif edərkən onların aşağıdakı növlərini fərqləndirir: siql, kontraktura, suspenziya və fonoideoqramlar (14, s.122).

Qrafik ixtisarlar istifadəçilərin müzakirə etdikləri mövzuların daha sürətli, yığcam və effektiv ifadə edilməsinə imkan tanıyır. Onları bir neçə əsas kateqoriyaya ayırmaq olar:

1. Tək sözlərin və söz birləşmələrinin baş hərflərindən ibarət olan ixtisarlar. Məsələn:

a. ***Siql.*** ("*"Siql" tək söz və ya söz bişləsməsi komponentlərinin ilkin hərflərindən yaranmış qrafik qısaltmadır*" (6, s.38)). Siqlin aşağıdakı tipləri fərqləndirilir.

— tək sözlərin ixtisarından yarananlar: "h." < "hektar", "s." < "saniyə".

— söz birləşmələrinin ixtisarından yarananlar: "asap" < "as soon as possible", "btw" < "by the way".

Bu cür ixtisarlar daha sürətli yazı və daha az simvol istifadəsi ilə istifadəçilər arasında rahatlıq yaradır. Məsələn, ingilis dilində "btw" ifadəsi, uzun bir cümləni qısa və aydın bir formada çatdırmağa imkan verir.

Bu baxımdan N.D. Poletayeva siqlilərin söz birləşmələrinin ixtisarı olan tiplərindən bəhs edərkən qeyd edir ki, ingilis dilində bu tipdən olan siqlilər sadə cüttərkibli sadə cümləları əvəz edə bildiyi kimi, həm də sadə təktərkibli cümlələri də əvəz etmək potensialına malik olan qrafik ixtisarlardır. Məsələn, "lmk – let me know və ya idk – I don't know" (14, s.123).

Cümlədə qrafik ixtisarlar bir çox cümlə üzvü kimi çıxış edə bilər, lakin onların əksəriyyəti yazılı nitqdə giriş xarakterli ifadələr kimi istifadə edilir. Bu tip qısaltmalar tənqid ("smh"), təəccüb ("omg"), şəxsi fikir ("imho", "tbh"), inamsızlıq ("ig", "ngl") ifadə edə bilər və ya diqqəti cəlb etmək ("btw") üçün istifadə oluna bilər.

Deməli, siqlləri elmi ədəbiyyatda qeyd edildiyi kimi 2 altqrupa deyil, 3 altqrupa ayırmaq daha doğru hesab edilə bilər:

— tək sözlərin ixtisarı əsasında yaranan siql;

— söz börləşməsinin ixtisarı əsasında yaranan siql;

— cümlə strukturunun ixtisarı əsasında yaranan siql.

b. ***Suspenziya.*** Bu ixtisarlar, sözlərin bir hissəsinin qısaldılması ilə yaranır. Qeyd edilir ki, "*suspenziyalar bir sözün və ya söz birləşməsinin heca səviyyəsində qısaldılmasıdır*" (6, s.36). Məsələn: "sig" < "signature file", "esc" < "escape". Bu tip ixtisarlar proqramlaşdırma və texnologiya ilə əlaqəli müzakirələrdə geniş istifadə olunur ki, bu da onların spesifik kontekstdə anlaşılmasını asanlaşdırır.

Azərbaycan dilində tərtib edilmiş dilçilik terminlərinin izahlı lüğətlərinin birində "suspenziya"dan qrafik ixtisar növü kimi ayrılıqda qeyd edilməsədə, "suspenziya prinsipi"ndən bəhs edilir: "Orfoqrafiyada sözün yalnız bircə hərfi deyil, onun bir hissəsinin yazılması prinsipinə suspenziya deyilir. Məsələn, dosent-dos., birləşmə-bir., mürəkkəb-mür., professor- prof. , səh. (səhifə), məs. (məsələn) və s." (1, s.343).

Digər bir mənbədə isə qrafik ixtisarın bu növü haqqında belə qeyd edilir: "*suspenziyalar sözün sonunun ixtisar edilməsi nəticəsində başlanğıcın saxlanılması yolu ilə yaranır. Suspenziyaların əsas xüsusiyyəti odur ki, onlar öz prototiplərinə nisbətən başlanğıc sözlərin variantları kimi də mövcud olur. Bu tip qısaltmalar orijinal quruluşun tərkibinə daxil olan komponentlərin sayına əsasən 2 alt qrupda fərqləndirilə bilər:*

*— tək sözlərin heca səviyyəsində ixtisarı: diff < difference; esc < escape;*

*— söz birləşmələrinin heca səviyyəsində ixtisarı (bu tip suspenziyalarda söz birləşməsinin bütün elementlərinin hecalarının daxil edilməsinə nadir hallarda təsadüf edilir. Bu tipdə, əsasən, yalnız birinci söz qısaldılır, ikinci element isə ellipsisə uğrayaraq, tamamilə atılır: app < application program; no op < no operator*" (10, s.155).

c. ***Kontraktur.*** Bu qrup ixtisarlar yalnız samit səslərini ifadə edən işarələrdən ibarətdir. Məsələn: "thx" < "thanks", "hrs" < "hours".

"*Kontrakturlar saitlərin və qismən samitlərin əsasdan çıxarılması və kompressiya yolu ilə yaranır. Bu qısaltmalar qrupunu yalnız samit səsləri verən işarələr təşkil edir. İngilis dilində konsonantoqramların yaranması, samitlərin informasiya yükünün saitlərdən daha yüksək olması ilə əlaqəlidir*" (10, s.155). Deməli, qrafik ixtisarların bu tipi daha çox ingilis dili üçün xaraterikdir və məhz ingilis dilinin təsiri ilə digər dillərə də sirayət etmişdir. Məsələn, Azərbaycan dilində çat yazışmalarında istifadə edilən "slm" < "salam", "twk" < "təşəkkür edirəm" tipli qrafik ixtisarlar da bu qəbildəndir.

Konrakturların aşağıdakı növləri mövcuddur:

— sözlərin ixtisarından yaranan kontrakturlar: pls < please;

— söz birləşmələrinin ixtisarından yaranan kontrakturlar: LHB < Lost Heartbeat; BRGDS < Best Regards.

Konrakturların söz birləşmələri əsasında formalaşan növü ilə əlaqəli olaraq, gətirilən nümunəyə nəzərən demək olar ki, bu, kontrakturların nadir növü hesab edilir (8, s.9-10). Burada qrafik qısaltmaların digər növləri ilə qarışması baş verir. Məsələn, kontrakturlar inisiativ və ya heca qısaltmaları ilə birləşə bilər. Bu o deməkdir ki, kontraktura yalnız samitlərin saxlanılması ilə sait səslərin ixtisarı ilə məhdudlaşmır, həmçinin digər ixtisar növlərinin xüsusiyyətlərini də özündə birləşdirə bilir. Bu cür qarışıq (kombinasiyalı) ixtisarlar daha mürəkkəb və fərqli formalar meydana gətirir.

Ümumiyyətlə, yuxarıda da qeyd edildiyi kimi, ixtisarların bütün növlərinə ingilis dilində rast gəlmək mümkündür. Bunun səbəbini fərqli amillərlə əlaqələndirsələr də, bu məsələ ilə

bağlı O.D. Meşkovun irəli sürdüyü fikir daha məqsədəuyğun görünür. O, ingilis dilinin ixtisarlara daha çox meyilli olduğunu bu dildə hegemonluq edən “monosillabizm”lə əlaqələndirərək belə yazır: “*ingilis dilinin monosillabizmə meyli ingilis dilində müxtəlif qısaltmaların geniş yayılması və intensiv artmasının ən mühüm səbəblərindən biridir*” (13, s.155).

d. ***İdeoqrafik işarələr (Fonoideoqramlar).*** Qrafik ixtisarların dördüncü tipi kimi ideoqrafik işarələrin də fərqləndirilməsi məqsədəuyğun hesab edilir. Bu qrupa daxil edilən qrafik ixtisarlar müxtəlif mənaları ifadə edən işarələrdən ibarətdir. Məsələn, “2bctnd” < “to be continued”, “cu” < “see you”.

S.O. Barinova müasir ingilis və fransız dillərində, xüsusilə internet ünsiyyətində (çatlar, bloqlar, sosial şəbəkələr, forumlar) geniş yayılmış tamamilə yeni bir ixtisar növü kimi ideoqrafik işarələr adlanan fonoideoqramları, xüsusilə fərqləndirir. O yazır: “*Bunlar işarənin təxmini mənasını dəqiqləşdirən determinant işarəsindən və həmin işarənin oxunuşu haqqında məlumat verən fonetik işarədən ibarət olan ideoqrafik işarələrdir*” (5, s.19). O, üç növ fonoideogramı nəzərdən keçirir:

— rəqəmsal tip (ing.: “f2f” < face to face, “b4” < before; frans.: “mer6” < merci, “matl” < matin);

— hərfi tip (ing.: “wbu” < what about you, “tuvm” < thank you very much; frans.: “eske” < est-ce que, “kestuf” < qu'est-ce que tu fais);

— qarışıq tip (ing.: “cul8r” < see you later, “o4u” < all for you; frans.: “koi29” < quoi de neuf, “blsur” < bien sûr).

Yu.A. Xusnullina və V.Ye. Abramov qeyd edirlər ki, “*formanı yaradan fon müxtəlif struktural elementlər vasitəsilə təmsil oluna bilər*” (16, s.2531). Kombinasiya olunan və ya qarışıq fonoideoqramlar (loqoqramlar, anaqramlar) üçün hərf + rəqəm (və ya əksinə) (4-D texnologiyası) və hərfi-simvolik (Li-Fi < Light Fidelity) xarakterikdir.

Bu tip qrafik ixtisarlar internet istifadəçiləri arasında asanlıqla tanınır və gündəlik ünsiyyətdə də geniş yayılmışdır.

e. ***Piktoqramlar.*** Piktoqramlar konkret bir məzmunu ifadə edən vizual işarələrdir. Mənbələrin birində piktoqramların izahı bu şəkildə təqdim edilir: “*Piktoqrafik yazıda hər bir ünsür piktoqram adlanır. Hər piktoqram bir və ya bir neçə cümləni əks etdirir. Belə yazıda nitq sözlərə bölünmür, bütöv cümlələrlə ifadə olunur*” (1, s.283). Qrafik işarə olmasına rəğmən, məna yüklü olduğundan onların da qrafik ixtisarlar kimi səciyyələndirilməsini doğru hesab edərək, piktoramları da bu təsnifata salmağı lazım bilirik. Qeyd edilir ki, “*emojilərin şəbəkə ünsiyyətində artan əhəmiyyəti piktoqramların gənclər arasında bir sıra slenq sözlərini tədricən sıxışdırması ilə təsdiqlənir. Bu, xüsusilə Instagram sosial şəbəkəsinin araşdırma nəticələri ilə sübuta yetirilir*” (12, s.2). Virtual məkanda istifadə edilən piktoqram səciyyəli ixtisarlar iki əsas növə bölünür:

1. İkonik piktoqramlar: Bunlar, konkret predmet və ya hadisəni təmsil edən simvollardır. Məsələn, gülüş üz ifadələri (:-) və s. istifadəçilərin emosiyalarını ifadə etməyə kömək edir. Qeyd edilir ki, “ikonik o işarədir ki, onun forması həmin işarənin bildirdiyi məna oxşarlığı vasitəsilə izah edilir” (1, s.148).

İnternet ünsiyyətinə xas olan mətnin qısaldılması, müxtəlif piktoqramların, o cümlədən emojilərin, müxtəlif stikerlərin, giflərin və s. istifadəsi ilə həyata keçirilir. Lakin şifahi nitqin ayrılmaz komponenti olan intonasiyadan fərqli olaraq internet mesajlarında təsviredici və qrafik

vasitələrin istifadəsi spesifikdir. Bununla yanaşı, "*nəzərə almaq lazımdır ki, virtual mühitdə ünsiyyət real deyil, uydurulmuş bir "şəxsiyyət" və ona uyğun nitq davranışı yaratmağa imkan verir*" (9, s.43).

2. Simvolik piktoqramlar: Bunlar, daha abstrakt mənaları ifadə edən işarələrdir, məsələn, "@" işarəsi, e-poçt ünvanlarının ifadəsində geniş istifadə olunur.

Qrafik ixtisarların dil və ünsiyyətə təsiri mühüm əhəmiyyət kəsb edir. Onlar internet mühitində dilin daha informal və sürətli şəkildə inkişafına səbəb olur. Emotikonlar və emoji kimi vizual simvollar, istifadəçilərin duyğularını ifadə etməyə və mesajların məzmununu zənginləşdirməyə kömək edir. Məsələn, ":)" simvolu istifadəçilərə müsbət emosiyaları ifadə etməyə imkan tanıyır.

İnternet məkanında istifadə olunan qrafik ixtisarların təsnifatı, dilin dinamikasını və müasir ünsiyyət formalarını əks etdirir. Bu ixtisarlar, istifadəçilər arasında daha sürətli və effektiv ünsiyyət yaratmağa kömək edir, eyni zamanda, dilin inkişafını da stimullaşdırır. Qrafik ixtisarların geniş yayılması, dilin informatizasiyası və mədəniyyətlərarası ünsiyyətin zənginləşməsi baxımından müsbət bir tendensiyadır. Gələcəkdə, qrafik ixtisarların daha da müxtəlifləşəcəyi və internet dilinin dinamikasının davamlı olaraq inkişaf edəcəyi gözlənilir.

Hər hansı spesifik fəaliyyət növü, mütləq olaraq, ixtisaslaşmış, müəyyən bir sahəyə aid olan dilinin (jargon, slenq) yaranmasına səbəb olur. Jargonun "anlaşılmaz, mücərrəd dil" və "yalnız bir qrup insan və ya peşəyə aid olan dil" mənaları arasında aydın bir sərhəd mövcuddur. "*Müasir internet texnologiyalarının yeniliyi və müxtəlifliyi xüsusiləşmiş leksikanın fərqləndirilməsinin müəyyən bir insan qrupuna aid olmağı göstərən bir parol halına gətirir*" (5, s.95).

Buna görə də bütün bu ixtisarların internet istifadəçiləri üçün tanıdıcı işarələr rolunu oynadığını söyləmək olar. Ancaq ixtisarların yaranmasının əsas səbəbi yalnız internetdə ünsiyyət spesifikasiyası deyil, eyni zamanda, yuxarıda qeyd edildiyi kimi, özünün və başqalarının vaxtına qənaətetmə ehtiyacıdır.

Demək olar ki, internet dilində bir çox situasiyalarda mənfi xüsusiyyətlər özünü göstərir. Əksər ifadələrin tonu ironiyalı və metaforikdir, "*burada hər hansı etik normalara riayət olunmur, müxtəlif mənəvi qadağaların və tabuların pozulması davam edir*" (4, s.789). Bunun bir nümunəsi ***flamming, spamming*** və ***bootstrapping*** kimi spesifik fəaliyyət növlərinin internetdə yayılmasıdır.

Başqa nümunələr olaraq, "twain" (thing with an interesting name) və "bg" (big grin) kimi zarafatyana qrafik inisial ixtisarlar, eləcə də nalayiq sözlərin daimi istifadəsi göstərilə bilər. Şəbəkə dilinin bir digər xüsusiyyəti, məsələn, "rotflol" (rolling on the floor laughing out loud) və ya "fotcl" (falling off the chair laughing) kimi detallı şəkildə hazırlanmış abartmaların istifadəsidir. Yuxarıda göstərilən bütün nümunələr internet dilinin müxalif və subkultural xarakterini göstərir.

Bütün bunları nəzərə alan E.D.Çibor qeyd edir ki, "*nitqin qısaldılması və sürətləndirilməsi meylləri heç də həmişə müsbət deyil. Dil yalnız mədəniyyətin ən vacib mənbələrindən biri olmaqla yanaşı, həm də onu qorumaq və ötürmək üçün mövcud olan az sayda vasitələrdən biridir, buna görə də zamanın tələbinə uyğunlaşarkən zəngin ədəbi dilin həqiqi dəyərini unutmamaq vacibdir*" (2, s.353).

Verilmiş təsnifat müasir leksik və qrafik ixtisarların internet dilindəki materialını dilçilik baxımından şərh etməyə və ixtisarların formalaşma alqoritmini aşkar etməyə imkan yaradır.

Nəzərdən keçirilən nəzəri və dil materialları belə deməyə əsas verir ki, qrafik ixtisarlar İnternet məkanında sürətli və səmərəli ünsiyyətə kömək edən əsas vasitələrindən biridir. Bu ixtisarlar istifadəçilər arasında məzmunun daha yığcam və rahat şəkildə ifadə olunmasına şərait yaradır və internet dilinin inkişafını stimullaşdırır.

Bu elmi araşdırmada müxtəlif növ qrafik ixtisarların (siql, suspenziya, kontraktur, ideoqrafik işarələr, piktoqramlar) təsnifatı təqdim edilmişdir. Hər bir qrafik ixtisar növü öz funksiyası və dilə təsiri ilə izah edilir. Məsələn, siql (baş hərflərdən ibarət ixtisarlar), suspenziya (sözlərin heca səviyyəsində qısaldılması), kontraktur (yalnız samit səslərinin saxlanılması ilə yaranan qısaltmalar) və fonoideogramlar (işarələrdən ibarət qrafik ixtisarlar) daxil edilir.

İnternet dili xüsusən qrafik ixtisarlar vasitəsilə daha sürətli, yığcam və effektiv ünsiyyətin qurulmasına imkan verir. Eyni zamanda, bu ünsiyyət forması dilin informatizasiyasını və mədəniyyətlərarası ünsiyyətin zənginləşməsini təmin edir.

Qrafik ixtisarlar yalnız dilin struktur və funksional inkişafına deyil, həm də sosial və mədəni aspektlərə təsir göstərir. İnternet dilindəki qısaltmalar müasir texnologiyaların və sosial şəbəkələrin istifadəsi ilə əlaqəli olaraq yeni kommunikasiya formalarının yaranmasına səbəb olur. Dil yalnız mədəniyyətin ən vacib mənbələrindən biri deyil, həm də onu qorumaq və ötürmək üçün mövcud olan az sayda vasitələrdən biridir. Bu səbəbdən ədəbi dilin və dil normalarının da dəyərini unutmamaq vacibdir.

**Problemin aktuallığı.** İnternetin geniş yayılması ilə əlaqədar olaraq qrafik ixtisarların yaranması və istifadə sahəsinin genişlənməsi və bu ixtisarların internet ünsiyyətinin sürətləndirilməsi və daha effektiv olmasına kömək etməsi, eyni zamanda dilin yeni kommunikasiya formalarının inkişafını stimullaşdırması bu elmi araşdırmanın aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Məqalə çərçivəsində Azərbaycan dilçiliyində ilk dəfə olaraq İnternet materiallarına istinadən qrafik ixtisarların yeni təsnifatı təqdim edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İnternet üzərindən ünsiyyətin sürətli və effektiv olmasını təmin edən qrafik ixtisarların düzgün istifadəsi və təsnifatı bu sahədə elmi araşdırma aparan tədqiqatçılar üçün yeni material sərgiləyir.

## Ədəbiyyat

1. Sadıqova, S. Azərbaycanca-türkcə izahlı dilçilik terminləri lüğəti / S. Sadıqova, Ş. Həsənli-Qəribova. — Bakı: Elm, — 2020. – 416 s.

2. Chibor, E.D. Graphical Abbreviation and Acronyms in English // — Киев: Молодой ученый, – 2021. № 26, – p. 352-355.

3. Famina, N.V. Lexicology of the English language: a course of lectures / N.V. Famina. — Moscow: MADI, — 2018. — 96 p.

4. Habibova, K.A. Language policy in the virtual space / K.A.Habibova, Y.M. Jafarov //1st International Scientific Conference “Modern Management Trends and the Digital Economy: from Regional Development to Global Economic Growth”(MTDE 2019). – Atlantis Press, 2019, – p. 788-791.

5. Habibova, K. SPEECH EFFECT FUNCTION OF PRESUPPOSITION // — Baku: Linguistic Researches. – 2024. №. 1, — p. 91-97.

6. Асмус, Н.Г. Особенности функционирования сокращений в виртуальном дискурсе (на примере социальной сети Твиттер) / Н.Г. Асмус, Н.Д. Полетаева // — Челябинск: Челябинский гуманитарий. – 2021. № 2, – с. 34-42.

7. Баринова, С.О. Слоговые и сложнослоговые английские сокращения, используемые в сети Интернет // — Санкт-Петербург: Известия Российского государственного педагогического университета им. А.И. Герцена, — 2008. № 67, — с. 18-20

8. Баринова С.О. Типология англоязычных сокращений, используемых в сети Интернет: /Автореф. дисс. …канд.филол.наук/ — Воронеж, 2008. — 22 с.

9. Галяшина, Е.И. Семиотика эмотиконов и анимационных картинок в аспекте судебной лингвистической экспертизы // — Москва: Вестник Университета имени О.Е. Кутафина (МГЮА), – 2022. № 2, – с. 41-48.

10. Ганноха, И.В. История развития аббревиации как способа словообразования в английском и русском языках // — Москва: Science Time, — 2015. № 4 (16), – с. 154-160.

11. Вильчикова, Е.В. Иконичность в медиадискурсе (графический уровень) /Е.В. Вильчикова, М.Ю. Рябова // — Кемерово: Вестник Кемеровского государственного университета, – 2013. № 1, – с. 150-155.

12. Куликов, Л.В. Особенности использования пиктограмм-эмодзи в интернет-сообществах с разной частотой использования обсценной лексики / Л.В.Куликов, Ю.В.Потапова, А.Ю.Маленова (и др.) // — Москва: Психолог, – 2022. № 1, – с. 1-18.

13. Мешков, О.Д. Словообразование современного английского языка / О.Д.Мешков. — Москва: Наука, — 1976. — 245 с.

14. Полетаева, Н.Д. Особенности образования и функционирования графических сокращений в англоязычном виртуальном дискурсе // – Челябинск: Актуальные проблемы лингвистики: взгляд молодых исследователей: Сборник научных статей, — 2021. Том Выпуск 6, — с. 120-125.

15. Хамраев, Б.Д. Лексикализация графических сокращений и аббревиация как способы словообразования в русском языке // — Киев: Молодой ученый, – 2016. № 6, – с. 952-955.

16. Хуснуллина, Ю.А. Словообразовательные модели и структурные типы англоязычных неологизмов-терминов инфокоммуникационных технологий /Ю.А. Хуснуллина, В.Е. Абрамов // — Тамбов: Филологические науки. Вопросы теории и практики, – 2021. Т. 14, № 8, – с. 2529-2533.

**С.Ф. Гулузаде**

**Классификация графических сокращений, используемых в интернет-пространстве**

**Резюме**

Статья посвящена классификации графических сокращений, используемых в интернет-пространстве, и их статусу в языке. Актуальность темы связана с широким распространением интернета. Интернет-общение со временем изменяет динамику языка, порож-

дая новые формы общения. Особенно графические сокращения (сокращения и визуальные символы) стали неотъемлемой частью интернет-языка, а их использование способствует более быстрому и эффективному общению в письменной форме. В статье рассматривается классификация графических сокращений и их влияние на язык и общение, особенно анализируются сокращения, используемые в различных социальных сетях, форумах, блогах и мессенджерах. В данной статье впервые в азербайджанском языкознании представлена новая классификация графических сокращений на основе интернет-ресурсов. Статья определяет несколько типов сокращений, широко используемых в интернет-общении: сиглы, суспензии, контрактуры, идеографические знаки и пиктограммы. Каждое из этих сокращений отличается своими функциями и использованием, но все они служат практическим целям интернет-языка. Также в статье рассматривается социальное и культурное влияние графических сокращений и подчеркивается их роль в обогащении языка общения на виртуальных платформах.

**S.F. Guluzade**

**Classification of graphic abbreviations used in internet space**
**Summary**

This article is dedicated to the classification of graphic abbreviations used in internet space and their status in language. The relevance of the topic is connected with the widespread use of the internet. Over time, internet communication changes the dynamics of language, giving rise to new forms of communication. In particular, graphic abbreviations (abbreviations and visual symbols) have become an integral part of internet language, and their use facilitates faster and more efficient written communication. The article discusses the classification of graphic abbreviations and their impact on language and communication, with a particular focus on abbreviations used in various social networks, forums, blogs, and messengers. For the first time in Azerbaijani linguistics, a new classification of graphic abbreviations based on internet resources is presented in this article. The article defines several types of abbreviations widely used in internet communication: sigls, suspensions, contractions, ideographic signs, and pictograms. Each of these abbreviations differs in its functions and usage, but they all serve the practical purposes of internet language. The article also examines the social and cultural influence of graphic abbreviations and emphasizes their role in enriching the language of communication on virtual platforms.

**Redaksisyaya daxil olub:** 20.11.2024